QANUN № 01 (375), 2026, s. 36-46


**Səfərov Azər Tofiq oğlu,**
h.ü.f.d., Bakı Dövlət Universitetinin Əqli mülkiyyət hüququ kafedrasının müəllimi
Ünvan: Bakı şəhəri, Akademik Zahid Xəlilov küçəsi, 33
E-mail: azersafarov@bk.ru
ORCID: 0000-0002-6634-6368

**UOT 341:347.78**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4010**

# MÜƏLLİFLİK HÜQUQU VƏ ƏLAQƏLİ HÜQUQLARIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT NÖVLƏRİ

***Açar sözlər:*** *mülki məsuliyyət, maddi zərər, mənəvi zərər, cinayət məsuliyyəti, elektron məhkəmə, məhkəmə təcrübəsi, məhkəmə presedentləri, inzibati məsuliyyət, inzibati xəta, müəlliflik hüququ, müəlliflik hüquqlarının pozulması, hüquq pozuntusu, cinayət cəzası, media, audiovizual əsər, presedent hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət, əqli mülkiyyət hüquqları, rəqəmsal müəlliflik hüququ, əlaqəli hüquqlar, müəllif, prosessual norma, maddi hüquq normaları, insan hüquqları, ad hüququ, şərikli müəlliflik, məhkəmə müdafiəsi, müəllif qonorarı, kompensasiya, elektron müraciət, məhkəmədənkənar tənzimləmə.*

***Ключевые слова:*** *гражданская ответственность, материальный ущерб, моральный ущерб, уголовная ответственность, электронный суд, судебный опыт, административная ответственность, административная ошибка, авторское право, нарушение авторских прав, нарушение закона, уголовное наказание, средства массовой информации, аудиовизуальное произведение, судебная практика, права собственности, интеллектуальная собственность, права интеллектуальной собственности, цифровое авторское право, смежные права, автор, процессуальная норма, материальные правовые нормы, права человека, право на имя, соавторство, судебная защита, авторские гонорары, компенсация, электронное заявление, внесудебное урегулирование*

***Keywords:*** *civil liability, material damage, moral damage, criminal liability, electronic court, judicial experience, court presidents, administrative responsibility, administrative error, copyright, copyright infringement, violation of law, criminal punishment, media, audiovisual work, case law, property law, intellectual property, intellectual property rights, digital copyright, related rights, author, procedural norm, substantive legal norms, human rights, name rights, co-authorship, legal protection, author royalties, compensation, electronic application, out-of-court settlement.*

Azərbaycan qanunvericiliyində müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə mülki, inzibati və cinayət məsuliyyəti nəzərdə tutulur [11]. Bu məsuliyyət növləri, onların müəlliflik hüququnun mühafizəsindəki rolu və inzibati-cinayət hüquqi tədbirlərin mövcud problemləri məsələləri olduqca aktualdır və müəlliflik hüquqlarının mühafizəsində mühüm əhəmiyyət kəsb edir.

Hər bir hüquq pozuntusu sosial mənada ictimai münasibətlərə mənfi təsir göstərdiyindən zərər (ziyan) törədir. Bu səbəbdən də zərər sosial və hüquqi aspektlərə malikdir. Zərər yetirmə fiziki və yaxud da hüquqi şəxslərin subyektiv hüquqlarını pozur.

Mülki məsuliyyət Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələri, eləcə də mülki hüquq pozuntuları (deliktlər) bölməsi ilə tənzimlənir.

Məcəllənin 21-ci maddəsi maddi zərərə (ziyana) anlayış verir, onu real zərər və əldən çıxmış fayda kimi təsnifləndirir. 23-cü maddə isə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərəri (fiziki və mənəvi iztirabları) ehtiva edir [1].

Zərər anlayışı həmçinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.36-cı, Əmək Məcəlləsinin 290-cı və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanununun 12-ci maddələrində təsbit edilmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair" 31 may 2002-ci il tarixli Qərarında qeyd edilir ki, "...mülki hüquqda zərər ona görə sosial məna kəsb edir ki, subyektiv hüququn pozulması müəyyən edilmiş və qanunla qorunan obyektiv hüquqların pozulması ilə müşayiət olunur. Zərər forma və məzmunundan asılı olaraq əmlak və qeyri-əmlak xarakterli olur" [2].

Digər hüquq sahələrində olduğu kimi, müəlliflik hüququ və əlaqəli hüquqların pozulması da maddi və mənəvi zərərlə müşayiət olunur. Əgər pozuntu müəllifin qeyri-əmlak hüquqları ilə bağlıdırsa, Qanuna əsasən, müəllifin pozuntunun tanınmasını, pozuntunun düzəldilməsini, sonrakı qanunsuz hərəkətlərin qarşısının alınmasını, mənəvi zərərin ödənilməsini tələb etmək hüquqları vardır.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin 3 noyabr 2008-ci il tarixli 7 saylı Qərarında məhz mənəvi zərər anlayışının mənası daha da konkretləşdirilərək, onun insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə etdiyi kimi izahı verilir [12].

Maddi zərərdən fərqli olaraq, mənəvi zərərin ödənilməsini tələb etmək hüququ ancaq fiziki şəxslərə məxsusdur. Sözügedən qərarında Ali Məhkəmə müəyyən edib ki, şəxsə mənəvi zərərin vurulması mənəvi sarsıntı və iztirablara səbəb olan istənilən xarakterli qeyri-hüquqi hərəkət və ya hərəkətsizlikdə (mülki, cinayət, inzibati və s. hüquq pozmalarda) ifadə oluna bilər. Üstəlik də  zərərvuran şəxsin eyni əmələ görə mülki, inzibati və yaxud cinayət məsuliyyətinə cəlb edilməsi ondan həm də mənəvi zərərin ödənilməsini tələb etmək hüququnu istisna etmir. Plenum izah edir ki, mənəvi zərərin ödənilməsi barədə iddia o hallarda təmin edilə bilər ki, iddiaçının fiziki və mənəvi sarsıntılar keçirməsi, bunların cavabdehin qanunsuz hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verməsi, qanunsuz hərəkət və hərəkətsizliklə mənəvi zərər arasında səbəbli əlaqənin olması və zərərvuran şəxsin təqsiri müəyyən edilmiş olsun.

Azərbaycan Respublikasının məhkəmə-hüquq təcrübəsinin analizi müəlliflik və əlaqəli hüquqların sahiblərinin hüquqlarının pozulmasına görə mülki qaydada məhkəməyə müraciət faizinin çox aşağı olduğunu nümayiş etdirir. "Elektron məhkəmə" informasiya sistemində yerləşdirilmiş anonimləşdirilmiş məhkəmə qərarlarından belə məlum olur ki, 2019-2025-ci illərdə əlaqəli hüquqlarla bağlı vur-tut 6 qərar qəbul edilib [8].

Həmin qərarlardan 5-i əqli mülkiyyət hüququ ilə əlaqədar mübahisələrə mahiyyəti üzrə baxılmaqla bağlı olsa da, biri kassasiya şikayətinin

qeyri-mümkün hesab edilərək geri qaytarılması, yəni mübahisənin mahiyyəti ilə əlaqəli deyildir. Belə ki, kassasiya şikayətinə vəkilin orderi və müəyyən edilmiş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənədlər əlavə olunmadığından Ali Məhkəmənin Mülki, Kommersiya və İnzibati kollegiyalarının hakimlərindən ibarət qarışıq tərkibdə verdiyi 10.01.2025-ci il tarixli e-2(102)-501/2025 nömrəli qərardadla iddiaçının məhkəmə aidiyyəti ilə bağlı Xətai Rayon Məhkəməsinin e-2(011)-8984/2024 nömrəli xx.xx.2024-cü il tarixli qərardadından verdiyi şikayət geri qaytarılıb.

Sözsüz ki, Ali Məhkəmənin baxdığı işlərin sayının həddən artıq azlığı və üstəlik də müəlliflik hüquqları ilə bağlı məhkəmə statistikasının qeyri-müəyyənliyi ölkədə bu hüququn pozulması faktları ilə əhəmiyyətli ziddiyyət təşkil edir. Yəni, müəlliflik hüququ və əlaqəli hüquqların pozulması faktları günü-gündən artsa da, məhkəməyə müraciət faktlarının bu artım fonunda aşağı olması bir sıra suallar yaradır. Eyni zamanda, Azərbaycan Respublikasının məhkəmə-hüquq təcrübəsinin analizi müəlliflik hüquqları və əlaqəli hüquqların pozulması zamanı ümumilikdə kompensasiyanın verilməsi, həmçinin məbləği ilə bağlı kifayət qədər problemlərin mövcud olduğunu deməyə əsas verir.

Azərbaycan Respublikası Müəllif Hüquqları və Əqli Mülkiyyət Agentliklərinin rəsmi veb səhifəsində yer almış məlumatlar da bu quruma məhkəmədənkənar tənzimləmə üçün müraciət sayının o qədər də çox olmadığını göstərir.

Məsələn, Müəllif Hüquqları Agentliyinin saytında yayımlanmış hesabata görə, 2012-ci ildə müəllif hüquqlarının pozuntusu ilə bağlı quruma müraciət edən şəxslərin konkret sayı əks olunmasa da, həmin ildə vətəndaşlardan bilavasitə Agentliyə ümumi 399 müraciət daxil olub, bunun 373-ü ərizə, 27-si şikayət, 1-i təklif olub. Həmin müraciətlərdən 336-nın müsbət həll edildiyi, 37-nə müvafiq izahat verildiyi, 10-nun əsassız hesab edildiyi, 7-nin isə baxılmaq üçün aidiyyəti təşkilatlara göndərildiyi qeyd edilir [3].

2013-cü ildə bu rəqəmlər belə olub: 415 müraciət birbaşa Agentliyə (onlardan 8-i elektron qaydada) müraciət edib, 7 müraciət isə digər təşkilatlardan daxil olub (cəmi 422). Müraciətlərin 334-ü müsbət, 5-i qismən həll edilib, 51-nə müvafiq izahat verilib, 18-i baxılmaq üçün aidiyyəti təşkilata göndərilib, 3-ü məlumat xarakterli olduğundan nəzərə alınıb.

2014-cü ildə isə Agentliyə birbaşa 381 müraciət (onlardan 48-i elektron qaydada), 8 müraciət isə aidiyyəti üzrə baxılmaq üçün digər təşkilatlardan daxil olub (cəmi 389). Müraciətlərin 288-i müsbət, 8-i qismən həll edilib, 56-na müvafiq izahat verilib, 3-ü baxılmaq üçün aidiyyəti təşkilatlara göndərilib, 2-si məlumat xarakterli olduğundan nəzərə alınıb, 23-ü əsassız sayılıb.

2015-ci ildə isə Agentliyə 492 müraciət (onlardan 80-ni elektron qaydada) edilib, 5 müraciət isə aidiyyəti üzrə baxılmaq üçün digər təşkilatlardan daxil olub (cəmi 497). Müraciətlərin 373-ü müsbət, 10-u qismən həll edilib, 86-na müvafiq izahat verilib, 21-i əsassız sayılıb.

Müraciət edənlərin şikayətlərinin hansı faizinin məzmununun müəlliflik hüquqlarının pozuntusu ilə bağlı olduğunu bilmədiyimizdən, nəzəri baxımdan əsassız hesab edilən şikayət müəlliflərinin məhkəməyə müraciət etməyə həvəsli olmadıqlarını da iddia etmək olar.

Eyni zamanda Agentliyin nəzdində yaradılmış 960 nömrəli "Qaynar xətt"ə müraciətlərin sayı haqda məlumatlar verilsə də, həmin müraciətlərin nə qədərinin tam müsbət, nə qədərinin qismən həll edildiyi, nə qədərinin isə digər qurumlara yönləndirildiyi və həll edilmədiyi məlum deyil.

Əqli Mülkiyyət Agentliyinin saytında yer almış məlumatların emalı da bu fikri daha da gücləndirir.

2018-ci ilin yekunları üzrə görülmüş işlər barədə ətraflı hesabatdan məlum olur ki, həmin ildə vətəndaşlardan birbaşa bu Agentliyə 690 müraciət (onlardan 88 elektron qaydada), 2 müraciət isə aidiyyəti baxılmaq üçün digər təşkilatlardan daxil olub (cəmi 692). Müraciətlərin 563-ü müsbət, 2-si qismən həll edilib, 56-na müvafiq izahat verilib, 7-si əsassız sayılıb, 3-ü baxılmaq üçün aidiyyəti təşkilata göndərilib. Bu il üzrə pozulmuş müəlliflik hüquqlarının konkret sayı haqda məlumat verilmir [4].

Pozulmuş müəlliflik hüquqlarının bərpası üçün edilən müraciətlər 2019-cu ildə cəmi 10 müraciət təşkil edib. Həmin müraciətlərin müəllif-hüquq qanunvericiliyinin tələbləri baxımından təhlil edildiyi, bir neçə müraciətlə bağlı digər müvafiq dövlət və digər qurumlara sorğular göndərildiyi, yerdə qalan digər müraciətlərin isə Agentliyin mütəxəssislərinin köməyi ilə öz müsbət həllini tapdığı qeyd edilib.

2020-ci ildə pozulmuş müəlliflik hüquqlarının bərpası ilə bağlı hüquqi və fiziki şəxslərdən 11 yazılı müraciət daxil olduğu, bir qisminin Agentliyin səlahiyyətləri çərçivəsində həll edildiyi, qalanları isə aidiyyəti qurumlara göndərildiyi qeyd edilir.

2021-ci ildə pozulmuş müəlliflik hüququ və əlaqəli hüquqların bərpasına kömək göstərilməsi ilə bağlı Agentliyə 8 yazılı müraciət daxil olub.

2022-ci ildə bu müraciət sayı 10 olub.

2024-cü ildə isə pozulmuş əqli mülkiyyət hüquqlarının bərpası ilə bağlı Agentliyə 100-dən çox yazılı müraciət, o cümlədən pozulmuş müəlliflik hüquqlarının bərpasına köməklik göstərilməsi barədə 19, əmtəə nişanlarından qanunsuz istifadəyə dair 95 müraciət daxil olub [4].

Beləliklə, istinad edilən məlumatlar da məhkəmədənkənar tənzimləmə üçün müraciət sayının az olduğunu üzə çıxarır.

Bura aşağıdakı faktları da əlavə edəndə mənzərə tam aydın olur.

Belə ki, Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin 2012-ci ildə fəaliyyətinin yekunları üzrə hesabatdan məlum olur ki, 2012-ci ildə dövlət orqanları və müəlliflərin müraciətləri üzrə 2 iddia ərizəsi tərtib edilib, Agentliyə daxil olan 1100 sənəddən 10-u məhkəmələrdən daxil olub. Agentlik özü isə məhkəmələrə cəmi 2 məktub göndərib.

2013-cü ildə isə müəlliflər və hüquq sahiblərinin müraciətləri üzrə 1 iddia ərizəsi tərtib edilib, Agentliyə daxil olan 1083 sənəddən 20-si apellyasiya və aşağı instansiya məhkəmələrindən, daxil olub. Hesabat dövründə Agentlikdən göndərilən 686 sənədin cəmi 1-i Ali Məhkəməyə, 7-si isə digər məhkəmələrə göndərilib.

2014-cü ildə isə müəlliflər və hüquq sahiblərinin müraciətləri üzrə iddia ərizələrinin tərtib edildiyi və tərtib edilməsində kömək göstərildiyi qeyd edilsə də, ancaq tərtib edilən yaxud da tərtib edilməsinə kömək göstərilən iddia sənədlərin sayı dəqiqləşdirilmir.

2015-ci ildə də tərtib edilən iddia ərizələrinin saylı məlum deyil, müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 30 məhkəmə iclasında Agentliyin iştirak edildiyi qeyd edilir. Hesabat dövründə Müəllif Hüquqları Agentliyinə daxil olan 1041 sənəddən yalnız 40-ı məhkəmələrdən daxil olub. Agentlikdən çıxan 534 sənəddən isə cəmi 17-si məhkəmələrə göndərilib.

Əqli Mülkiyyət Agentliyinin 2018-ci il hesabatına əsasən isə Agentlik fəaliyyətə başladıqdan sonra sənaye mülkiyyəti obyektləri ilə bağlı müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 21 iş üzrə 40-dan çox məhkəmə iclasında iştirak edilib, dövlət, məhkəmə orqanlarının və hüquq sahiblərinin sorğuları əsasında müəllif-hüquq məsələləri ilə bağlı 20-dək ekspert rəyi hazırlayıb.

2019-cu ildə bu rəqəm 35 işə çatıb. Onlardan 31-i sənaye mülkiyyəti obyektləri, 4-ü isə müəllif hüquqları ilə bağlı olub. Agentlik nümayəndəsi 90-dan çox məhkəmə iclasında iştirak edib, hər bir iş üzrə ekspert rəyi hazırlanıb.

2020-ci ildə isə bu rəqəm 53 işə çatıb. Onlardan 45-i sənaye mülkiyyəti obyektləri, 8-i isə müəllif hüquqları ilə bağlı olub. Agentlik təmsilçisi 130-dan çox məhkəmə iclasında iştirak edib, hər bir iş üzrə ekspert rəyi hazırlayıb və məhkəməyə təqdim edib.

2021-ci ildə işlərin sayı 54 olub. Onlardan 46-sı sənaye mülkiyyəti obyektləri, 8-i isə müəllif hüquqları ilə bağlı olub. Agentlik təmsilçisi 160-dan çox məhkəmə iclasında iştirak edib, hər bir iş üzrə ekspert rəyi hazırlayıb, məhkəməyə təqdim edib.

2022-ci ildə işlərin sayı azalıb, 50-yə düşüb. Təmsilçisi 130-dan çox məhkəmə iclasında iştirak edib, hər bir iş üzrə ekspert rəyi hazırlayıb və məhkəmələrə təqdim edib.

2023-cü ildə isə müxtəlif məhkəmə instansiyalarında keçirilmiş 50-yə yaxın iş üzrə 80-dək məhkəmə iclasında Agentlik nümayəndələri iştirak edib, hər bir iş üzrə ekspert rəyi hazırlanıb. Agentlikdə ictimai əsaslarla fəaliyyət göstərən “Hüquq məsləhətxanası” il ərzində müəlliflər və digər hüquq sahiblərinin istifadəsində olub, qaldırdıqları məsələlərin həllində və məhkəmələr üçün iddia ərizələrinin tərtib edilməsində onlara köməklik göstərib. Ancaq neçə iddia ərizəsinin tərtib edildiyi və yaxud da tərtibinə kömək göstərildiyi statistikası verilmir.

Nəhayət 2024-cü ildə Agentlik təmsilçiləri 50-yə yaxın iş üzrə 80-dək məhkəmə iclasında iştirak edib, hər bir işə dair ekspert rəyi hazırlayıblar.

Yuxarıda qeyd edilənləri nəzərə almaqla yanaşı bir daha qeyd etməliyik ki, müəlliflik hüquqları və əlaqəli hüquqların qorunması sahəsində Əqli Mülkiyyət Agentliyinin rolu danılmazdır və Agentlik tərəfindən bir çox işlər görülmüşdür.

Eyni zamanda, göründüyü kimi, ölkədə müəllif hüquqları və əlaqəli hüquqların məhkəmə müdafiəsi hüququ ilə bağlı müraciətlər həddən artıq zəif inkişaf edib. Bunun bir çox obyektiv səbəbləri ilə yanaşı, subyektiv səbəbləri də mövcuddur. Bu səbəblərə hüquq sahiblərinin müəlliflik hüququnun mühafizəsi sahəsində qanunvericiliyə bələd olmaması, müəlliflik hüququnun qorunması və təminatının nə üçün vacib olmasını tam anlamaması və s. nümunə göstərmək olar.

Müəllif hüquqlarının pozulmasına görə inzibati məsuliyyət qanunsuz fəaliyyət mənfəət məqsədi ilə törədildikdə yaranır. Məsələn, bir iş adamı Aeroplan şirkətinin razılığı olmadan Çin istehsalçısından “The Fixies” cizgi filmindəki personajların təsvir olunduğu bir dəftər dəsti sifariş edir və onları öz mağazasında satır. Bu, müəllif hüquqları ilə qorunan materialların saxta nüsxələrinin satışı hesab olunur və inzibati məsuliyyətə cəlb olunur. Məsuliyyət həmçinin məhsul lisenziyalı olduqda, lakin müəllif hüquqları və əlaqəli hüquq sahibləri haqqında məlumatlar yalan və ya natamam olduqda da yaranır [15].

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (İXM) 21-ci fəslinin (İnsan və vətəndaşın hüquq və azadlıqları əleyhinə olan inzibati xətalar) 4 maddəsi müəlliflik hüququ və əlaqəli hüquqlarla görə inzibati tənbeh növü nəzərdə tutur. 185-ci maddə müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına, 186-cı maddə inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn pozulmasına görə bir sıra sanksiyalar təsbit edir. 187-ci maddə folklor nümunələrindən istifadə tələblərinin pozulmasına, 188-ci maddə isə məlumat toplularından qeyri-qanuni istifadə edilməsinə görə inzibati məsuliyyət müəyyən edir [7].

İXM-in 185-ci maddəsinə əsasən müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə az miqdarda ziyan vurulduqda, inzibati xətaya yol vermiş şəxs müsadirə və pul cəriməsi ilə cəzalandırır. Az miqdarda ziyan, min manatadək olan məbləği ifadə edir.

Sözügedən maddəyə görə, pirat nüsxələr, həmçinin pirat nüsxələrin hazırlanmasında (is-

tehsal edilməsində) və yayılmasında istifadə olunan materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr müsadirə edilməklə bu cür hüquq pozuntusuna yol vermiş təqsirkar şəxslər səksən manatdan yüz əlli manatadək məbləğdə cərimə edilir.

İXM-nin 186-cı maddəsi də inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququn pozulmasına görə eyni məbləğdə pul cəriməsi nəzərdə tutur.

187-ci maddəyə əsasən folklor nümunələrindən istifadə tələblərinin pozulmasına görə, bu az miqdarda ziyan vurduqda, folklor nümunələrinin istifadəsinə qoyulan tələblərin pozulması ilə hazırlanmış (istehsal edilmiş) və yayılmış folklor obyekti nüsxələri (pirat nüsxələr) müsadirə edilməklə, fiziki şəxslər səksən manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

188-ci maddə isə az miqdarda ziyan vurmaqla müşayiət edilən məlumat toplularından qeyri-qanuni istifadə edilməsinə görə, məlumat toplusunun pirat nüsxələri, həmçinin pirat nüsxələrin hazırlanmasında (istehsal edilməsində) və yayılmasında istifadə olunan materiallar, avadanlıqlar və hüquqpozmaya səbəb olan digər vasitələr müsadirə edilməklə, fiziki şəxslər səksən manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, hüquqi şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə nəzərdə tutur.

Bir məsələni də vurğulayaq ki, cinayət məsuliyyəti yaradan inteqral sxem topologiyasına müstəsna hüquqların pozulması əməlini inzibati məsuliyyət yaradan eyni əməldən fərqləndirən yeganə əlamət belə əməllərin nəticəsinin bir-birindən fərqli olmasıdır. Yəni, göründüyü kimi, inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququ pozma az miqdarda (min manatadək olan məbləğdə) ziyan vurduqda, bu inzibati məsuliyyətə, xeyli miqdarda (min manatdan artıq olan məbləğdə) ziyan vurduqda isə cinayət məsuliyyətinə səbəb olur. Eyni fikir İXM-in 187 və 188-ci maddələrinə də aiddir. Folklor nümunələrindən istifadə tələblərinin pozulması az miqdarda, min manatadək olan məbləğdə ziyan vurduqda, bu inzibati məsuliyyətə, xeyli miqdarda ziyan, yəni min manatdan artıq olan məbləğdə vurduqda isə cinayət məsuliyyətinə səbəb olur. Məlumat toplusundan qanunsuz istifadə edilməsi də az miqdarda ziyan vurduqda, bu inzibati məsuliyyətə, xeyli miqdarda ziyan vurduqda isə cinayət məsuliyyətinə səbəb olur.

Fikrimizcə, hər dörd maddənin sanksiyası inzibati xəta tərkibinin əhəmiyyətinə adekvat deyil və həddən artıq cüzidir. Nümunə üçün müəlliflik hüququnun və əlaqəli hüquqların pozulmasına görə pul cəriməsini yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalara görə nəzərdə tutulan pul cərimələri ilə müqayisə etsək, birinci inzibati xətaya görə sanksiyanın çox aşağı olduğu üzə çıxar. Müqayisə üçün Məcəllənin 328.4-cü maddəsinə əsasən yolda müəyyən edilmiş hərəkət sürətini 61 km/saat və daha artıq aşmağa görə təqsirkar şəxslər üç yüz manat məbləğində cərimə edilir.

İnzibati xətaya görə tənbeh tədbirinin çəkindirici və tərbiyəedici funksiyalarını nəzərə alsaq, 80-150 manat aralığında pul cəriməsinin müəlliflik hüququ və əlaqəli hüquqların potensial pozucularının davranışına təsir etmək gücünün aşağı olduğunu təsdiq etmiş olarıq. Bu səbəbdən də hesab edirik ki, istənilən cəmiyyətin mədəni-humanitar əhəmiyyətini və iqtisadi potensialını şərtləndirən müəllif hüququnun və əlaqəli hüquqların inzibati pozuntularına görə cərimə məbləğləri sərtləşdirilməli, müasir tələblərə uyğunlaşdırılmalı və ən əsası isə inzibati tənbehin məqsədlərinə cavab verməlidir. Məlumdur ki, inzibati tənbehin əsas məqsədi inzibati xəta

törədən şəxsləri qanunlara əməl edilməsi ruhunda tərbiyələndirmək, habelə həm inzibati xəta törətmiş şəxslər, həmçinin də digər şəxslər tərəfindən yeni inzibati xəta törədilməsinin qarşısını almaqdır.

Bu məqsədə nail olmaq üçün isə sözügedən maddələrin sanksiyalarına yenidən nəzərə yetirmək qaçılmazdır.

Müəlliflik hüquqları qanunla qorunur. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 5 maddəsi müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozmağa görə cinayət məsuliyyəti müəyyən edir

165-ci maddə müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozmağa, 165-1-ci maddə inteqral sxem topologiyasından istifadəyə müstəsna hüququ pozmağa, 165-2-ci maddə folklor nümunələrindən istifadə tələblərinin pozulmasına, 165-3-cü maddə məlumat toplularından qeyri-qanuni istifadəyə görə, 166-cı maddə isə ixtiraçılıq və patent hüquqlarını pozmağa görə cinayət məsuliyyətini müəyyən edir [5]. Cəzanın cinayətin ağırlığına mütənasib olması və özbaşınalığı ifadə etməməsi üçün, cəza cinayətin təbiətindən doğmalıdır [10, s. 83].

165-ci maddədə nəzərdə tutulmuş cinayətin obyekti əqli mülkiyyət və yaradıcılıq azadlığıdır. Hər iki hüquq konstitusion hüquqdur (Azərbaycan Respublikası Konstitusiyasının 30 və 51-ci maddələri). Bu cinayətin predmeti müəlliflik hüququ və ya əlaqəli hüquq obyektləridir. Müəlliflik hüququnun obyektlərinə təyinatından, dəyərindən və məzmunundan, habelə ifadə formasından və üsulundan asılı olmayaraq yaradıcılıq fəaliyyətinin nəticəsi olan həm aşıqlanmış və həm də açıqlanmamış və müəyyən obyektiv formada ( yazılı, şifahi, təsviri, səsli və s.) mövcud olan elm, ədəbiyyat və incəsənət əsərləri aiddir. Əlaqəli hüquq obyektlərinə isə ifalar, fonoqramlar və yayımlar (efir və ya kabel yayımı təşkilatlarının verilişləri) aiddir. Bu cinayətin obyektiv cəhəti müəlliflik hüquqlarını və ya əlaqəli hüquqları pozmaqdan, bu əməllərin nəticəsində xeyli miqdarda ziyan vurulmasında və törədilmiş əməllə vurulmuş ziyan arasında səbəbli əlaqənin olmasından ibarətdir.

Cinayət Məcəlləsinin 165.1-ci maddəsi ilə cinayətin başa çatması üçün nəticənin xeyli miqdarda ziyanın (min manatdan artıq olan məbləğ) baş verməsi tələb olunur. Cinayətin obyektiv cəhətinin iki əlaməti əməl və onun nəticəsi arasında səbəbli əlaqənin olması zəruridir. Subyektiv cəhətdən bu cinayət birbaşa və ya dolayı qəsdlə törədilir. Cinayətin subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxslər ola bilər.

165-ci maddənin obyektini isə inteqral sxem topologiyasından istifadəyə müstəsna hüquqlar təşkil edir. İnteqral sxem topologiyasının anlayışı və onlardan istifadə üzrə müstəsna hüquqlar, habelə inteqral sxem topologiyalarının hüquqi qorunması ilə bağlı münasibətlər “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının 31 may 2002-ci il Qanunu ilə tənzim edilir. İnteqral sxem topologiyalarından yalnız orijinal olan topologiyalara müstəsna hüququ pozma cinayət məsuliyyəti yaradır. Orijinal olmayan inteqral sxem topologiyalarına hüquqların pozulması cinayət məsuliyyəti yaratmır. 165-1-ci maddəsində nəzərdə tutulan cinayət tərkibinin yaranması üçün cinayətin obyektiv cəhətinə daxil olan əməllərin inteqral sxem topologiyası müəllifinin və ya digər hüquq sahibinin icazəsi olmadan həyata keçirilməsidir. Bu normada nəzərdə tutulmuş cinayət maddi tərkibli cinayətdir. Cinayət məsuliyyətinin yaranması üçün inteqral sxem topologiyasına müstəsna hüquqların pozulması xeyli miqdarda ziyan vurulması ilə nəticələnməlidir. Yalnız belə nəticənin baş verdiyi andan cinayət başa çatmış sayılır. Bu cinayət subyektiv cəhətdən təqsirin qəsd formasında və müxtəlif motivlərlə törədilə bilər [6].

165-2-ci maddədə nəzərdə tutulan cinayətin obyektini isə folklor nümunələrindən istifadə edilməsi üzrə qanunvericiliklə müəyyən olun-

muş qayda və tələblər təşkil edir. Bu cinayətin predmeti qismində folklor nümunələri çıxış edir. Folklor nümunələri dedikdə, Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olanlar və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri başa düşülür. Bu cinayətin obyektiv cəhəti folklor nümunələrində istifadə tələblərinin pozulmasında ifadə olunan ictimai təhlükəli əməl və folklor nümunələrindən istifadə tələblərinin pozulmasında ifadə olunan ictimai təhlükəli əməl nəticəsində xeyli miqdarda ziyan vurulmasında ifadə olunur. Bu maddədə nəzərdə tutulan cinayət maddi tərkibli cinayətdir. Cinayət məsuliyyətinin yaranması üçün folklor nümunələrindən istifadə tələblərinin pozulması xeyli miqdarda ziyan vurulması ilə nəticələnməlidir. Yalnız belə bir nəticənin baş verdiyi andan cinayət başa çatmış sayılır. Bu cinayət əməli subyektiv cəhətdən təqsirin qəsd formasında və müxtəlif motivlərlə törədilə bilər.

165-3-cü maddədə nəzərdə tutulan cinayətin obyektini isə məlumat toplularından istifadə edilməsi üzrə qanunvericiliklə müəyyən olunmuş qayda və tələblər təşkil edir. Cinayətin predmeti qismində isə məlumat topluları çıxış edir. Məlumat toplusu dedikdə, sistemli və ya metodik qaydada tərtib edilmiş və elektron, yaxud digər vasitələrlə əldə oluna bilən əsərlərin, verilənlərin və digər materialların təqdiminin obyektiv forması başa düşülür. Bu cinayətin obyektiv cəhəti aşağıdakı ünsürləri əhatə edir:

- məlumat toplularından qeyri-qanuni istifadə edilməsində ifadə olunan ictimai təhlükəli əməl;
- məlumat toplularından qeyri-qanuni istifadə edilməsində ifadə olunan ictimai təhlükəli əməl nəticəsində xeyli miqdarda ziyan vurulması;

CM-in 165-3-cü maddəsində nəzərdə tutulan cinayət də maddi tərkiblidir. Cinayət məsuliyyətinin yaranması üçün məlumat toplusundan qanunsuz istifadə edilməsi xeyli miqdarda ziyan vurulması ilə nəticələnməlidir. Yalnız belə nəticənin baş verdiyi andan cinayət başa çatmış sayılacaqdır. Bu cinayət də subyektiv cəhətdən təqsirin qəsd formasında və müxtəlif motivlərlə törədilə bilər. Subyekti isə 16 yaşına çatmış hər hansı fiziki anlaqlı şəxs ola bilər.

166-cı maddənin obyekti və subyektiv cəhəti 165-ci maddədə nəzərdə tutulmuş cinayətin obyekti və subyektiv cəhəti ilə eynidir. Bu cinayətin predmetini əqli yaradıcılıq fəaliyyətinin konkret nəticələri – ixtira və ya səmərələşdirici təklif çıxış edir. Bu cinayətdən zərərçəkmiş qismində ixtiranın, faydalı modelin, sənaye nümunəsinin və səmərələşdirici təklifin müəlliflər, yəni onları yaradıcı əməyi ilə yaradan fiziki şəxslər və patent sahibləri olan fiziki və hüquqi şəxslər çıxış edirlər. Obyektiv cəhətdən ixtiraçılıq və patent hüquqlarını pozmadan, bunun nəticəsində xeyli miqdarda ziyan vurulmasından və törədilmiş əməllə vurulmuş ziyan arasında səbəbli əlaqənin olmasından ibarətdir. İxtiradan və bu cinayətin sair predmetlərindən qanuni şəkildə istifadə edilməsi 166-cı maddənin tərkibini yaratmır. Bu cinayət də maddi tərkiblidir. Subyekti 16 yaşına çatmış anlaqlı fiziki şəxslər ola bilərlər.

Sözügedən maddələrin təhlili göstərir ki, qanunverici həmin maddələrin istisnası olaraq hamısını böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına aid edib. Bu 5 maddənin hamısı alternativ sanksiyalı olmaqla böyük məbləğdə olmayan cərimə, ictimai və islah işləri, azadlığın məhdudlaşdırılması və yaxud da 2 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası müəyyən edir.

Cəzanın cinayətin ağırlığına mütənasib olması və özbaşınalığı ifadə etməməsi üçün, cəza cinayətin təbiətindən doğmalıdır [10, s. 83]. fikri ilə razılaşsaq da, qeyd etməliyik ki, inzibati məsuliyyət növündə olduğu kimi, cinayət

məsuliyyəti ilə bağlı da bu hüquq pozularkən cəza təhdidini yetərli hesab etmək mümkün deyil. Buna görə də fikrimizcə, müəlliflik hüquqları və əlaqəli hüquqların cinayət-hüquqi mühafizəsinin effektivliyi həmin maddələrin sanksiyasına yenidən nəzərdən keçirməyi zəruri edir.

Əks halda, konstitusion hüquq olan əqli mülkiyyət hüququnun etibarlı təminatından bəhs etmək çətindir.

Aydındır ki, cəzanın çəkindirici effekti potensial cinayətkarlara səmərəli təsir etmək gücünə malikdir. Cinayət cəzasının ümumi xəbərdarlıq funksiyası insan davranışını müəyyən etmək gücünə malikdir. Başqa sözlə, təsirli cəzanın insanların psixikasına göstərdiyi həlledici faktoru nəzərdən qaçırmaq olmaz.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46944;
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21 və 23-cü maddələrinin şərh edilməsinə dair” 31 may 2002-ci il tarixli Qərarı: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/15906;
3. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin rəsmi veb səhifəsi: [Elektron resurs] /URL: https://copag.copat.gov.az/az/hesabat
4. Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəsmi veb səhifəsi: [Elektron resurs] /URL: https://copat.gov.az/az/nav/hesabatlar;
5. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46947
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentarsiyası. – Bakı: “Hüquq Yayın Evi”, – 2023.
7. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi // Azərbaycan Respublikasının 29 dekabr 2015-ci tarixli 96-VQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/46960;
8. Elektron məhkəmə sistemi anonimləşdirilmiş qərarlar: [Elektron resurs] /URL: https://e-mehkeme.gov.az/Public/AnonymizeDecisions
9. “İnteqral sxem topologiyalarının hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının 31 may 2002-ci il tarixli Qanunu: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/23895
10. Səməndərov F.Y. Cinayət hüququnda cəza problemi: tarix və müasirlik. Dərs vəsaiti. Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2009, 286 s.: [Elektron resurs] /URL: https://cdn.oyu.edu.az/ebooks/BM/Cinayet%20huququnda%20cinayet%20ve%20ceza.pdf
11. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanunu: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/4167
12. “Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin 3 noyabr 2008-ci il tarixli 7 saylı Qərarı: [Elektron resurs] /URL: https://supremecourt.gov.az/az/media/xeberler/menevi-zererinodenilmesi-barede-qanunvericiliyin-mehkemeler-terefinden-tetbiqi-tecrubesi-haqqinda-165
13. Səfərov A.T. “Müəlliflik hüquqlarının müdafiəsi”. Səh.406-412. “Qloballaşma və Azərbaycan Respublikasında hüquq elminin əsas inkişaf istiqamətləri” mövzusunda beynəlxalq elmi-praktiki konfrans. – Bakı: Ecoprint, – 2018. – 414 s.
14. [Электронный ресурс]/URL: https://cyberleninka.ru/article/n/administrativnaya-otvetstvennost-za-narusheniya avtorskih-prav/viewer
15. Какова ответственность за нарушение авторских прав? [Электронный ресурс]/URL: https://sojuzpatent.com/ru/Izobreteniya/Detail/284

**Сафаров Азер Тофик оглу,**
доктор философии по праву, преподаватель
кафедры права интеллектуальной собственности БГУ

**ВИДЫ ОТВЕТСТВЕННОСТИ ЗА НАРУШЕНИЕ АВТОРСКИХ И СМЕЖНЫХ ПРАВ**

**РЕЗЮМЕ**

Виды ответственности за нарушение авторских и смежных прав имеют большое значение в защите этих прав. Каждое нарушение прав причиняет вред (ущерб) в социальном смысле, поскольку негативно влияет на общественные отношения. Следовательно, вред имеет социально-правовые аспекты. Причинение вреда нарушает субъективные права физических или юридических лиц. Как и в других областях права, нарушение авторских и смежных прав сопровождается материальным и моральным ущербом. Значение понятия морального ущерба было дополнительно уточнено в Постановлении № 7 Верховного Суда Азербайджанской Республики от 3 ноября 2008 года «О практике применения судами законодательства о возмещении морального ущерба». В отличие от материального ущерба, право требовать возмещения морального ущерба принадлежит только физическим лицам. В целом, анализ судебной практики Азербайджанской Республики показывает, что процент гражданских исков о нарушении прав правообладателей авторских и смежных прав очень низок. Согласно административных правонарушений кодексу, если в результате нарушения авторских и смежных прав причинен незначительный ущерб, лицо, совершившее административное правонарушение, наказывается конфискацией и штрафом. Уголовное законодательство устанавливает уголовную ответственность за нарушение авторских или смежных прав, нарушение исключительного права на использование топологии интегральных схем, нарушение требований к использованию образцов фольклора и незаконное использование баз данных. Анализ упомянутых статей показывает, что законодатель без исключения отнес все эти статьи к категории преступлений, не представляющих серьезной общественной опасности. Все эти статьи, с альтернативными санкциями, предусматривают штраф в небольшом размере, общественные и исправительные работы, ограничение свободы или лишение свободы на срок до 2 лет. Как и в случае административной ответственности, невозможно считать угрозу наказания этих нарушителей закона достаточной по отношению к уголовной ответственности. Поэтому обеспечение эффективности уголовно-правовой защиты авторских и смежных прав требует пересмотра санкций, предусмотренных этими статьями. В противном случае трудно говорить о надежной защите прав интеллектуальной собственности, которые являются конституционным правом.

**Safarov Azer Tofig,**
PhD in Law, Lecturer, Department of
Intellectual Property Law, BSU

**TYPES OF LIABILITY FOR VIOLATION OF COPYRIGHT AND RELATED RIGHTS**

**SUMMARY**

Types of liability for violation of copyright and related rights are of great importance in the protection of these rights. Each violation of rights causes harm (damage) in the social sense, since it has a negative impact on public relations. Therefore, harm has social and legal aspects. Causing harm violates the subjective rights of individuals or legal entities. As in other areas of law, violation of copyright and related rights is accompanied by material and moral damage. The meaning of the concept of moral damage was further specified in the Resolution No. 7 of the Supreme Court of the Republic of Azerbaijan dated November 3, 2008 "On the practice of applying the legislation on compensation for moral damage

by courts". Unlike material damage, the right to demand compensation for moral damage belongs only to individuals. In general, the analysis of the judicial practice of the Republic of Azerbaijan demonstrates that the percentage of civil lawsuits for violation of the rights of owners of copyright and related rights is very low. According to the Code of Administrative Offenses, if minor damage is caused due to violation of copyright and related rights, the person who committed the administrative offense is punished with confiscation and a fine. Criminal legislation establishes criminal liability for violation of copyright or related rights, violation of the exclusive right to use the topology of integrated circuits, violation of the requirements for the use of folklore samples, and illegal use of databases.

The analysis of the mentioned articles shows that the legislator, without exception, attributed all of these articles to the category of crimes that do not pose a major public danger. All of these articles, with alternative sanctions, determine a fine of a small amount, community and correctional labor, restriction of freedom or imprisonment for a term of up to 2 years. As in the case of administrative liability, it is impossible to consider the threat of punishment of these violators of the law sufficient in relation to criminal liability. Therefore, ensuring the effectiveness of criminal law protection of copyright and related rights necessitates a reconsideration of the sanction of these articles. Otherwise, it is difficult to talk about reliable protection of intellectual property rights, which is a constitutional right.

**Redaksiyaya daxilolma tarixi: 18.01.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 10.01.2026**
**Çapa qəbul olunma tarixi: 11.01.2026**